

# Tarixi araşdırmaları ilə tanınan insan

Qədirbilən xalqımızın sayseçmə ziyalıları sırasında öz yeri, öz mövqeyi, öz dəstxətti ilə tanınan insanlardan biri də tarix elmləri namizədi İsrafil Məmmədovdur. Onun keçdiyi mənalı ömür yolu ilə tanışlıq göstərir ki, dünyaya göz açandan, ağlı kəsən gündən ünsiyyətdə olduğu insanlara dərin məhəbbət hissi ilə yaşayıb-yaradan, çoxlarına nümunə olan belə bir gözəl insan hər yerdə, hər sahədə izzət sahibi kimi tanınmış el ağsaqqalıdır.

Siz onunla söhbət edərkən qarşısındakını—tərəfmüqabilini necə diqqətlə dinləməsinə, mərhəmət və heyranlıqla dolu baxışlarına fikir vermisinizmi?

Təmkinlik, ağır-ağayanalıq, bu və digər hadisələrə dərindən bələdlik, dost-tanışlarına, həmkarlarına sədaqət onun parlaq şəxsiyyətinin ən gözəl xüsusiyyətlərindəndir.

İsrafil Məmmədov 1927-ci ildə Mığrı rayonunda anadan olub. Orta məktəbi bitirdiyi il elə həmin məktəbə müəllim təyin olunub. Sonra rayon qəzetində işləməklə bərabər, həm də yerli radio qovşağının aparıcısı olub. İrəvanda Partiya məktəbini bitirdikdən sonra 1955-1990-cı illərdə "SOVET ERMƏNİSTANI" qəzetinin təbliğat şöbəsinin müdiri, partiya təbliğat şöbəsinin müdiri, məsul katibi, redaktor müavini və redaktoru olub. Ermənistanda "Azərbaycan Mətbuatı Tarixi"ndən disertasiya müdafiə edib və paralel olaraq İrəvan Pedaqoji İnstitutunda dərs deməyə başlayıb.

Məlum hadisələrlə bağlı doğma torpaqlarımızı tərk edərək Azərbaycana gəlib. İsrafil Məmmədov 1991-ci ildən Azərbaycan Dövlət Teleradio Verilişləri Şirkətində "Erməni redaksiyası"nın müdiri olub. İsrafil müəllim bu məsul işləri aparmaqla yanaşı, həm də daima tədqiqat işləri aparmışdır. İsrafil müəllimi həmişə ağrıdan və narahat edən problem xalqımızın əzəli və əbədi torpaqlarının erməni daşnaklarının əlinə keçməsi və buna da dünya ictimaiyyətinin və beynəlxalq təşkilatların laqeyd qalmasıdır. O, uzun illər əziyyət çəkərək arxivlərdə araşdırmalar aparmış, bir sıra fundamental tarixi mənbələrə əsaslanan və tarixi faktlarla müşayiət edilən sanballı əsərlər qələmə almışdır. "Zəngibasar qətliamları" (1905-1988) kitabında müəllif Zəngəzur mahalında azərbaycanlılara qarşı XX yüzillikdə törədilən vəhşiliklər tarixinin qısa xülasəsini tutarlı dəlil və sübutlarla ortaya çıxarmışdır.

Alimin bu səpkidən olan "Vedibasar qətliamları" (1918-1988) kitabında etnoqrafik xəritədən adı silinmiş Vedibasar mahalında azərbaycanlılara qarşı XX yüzillikdə törədilən qanlı qətliam, A.Şadlinskinin başçılığı altında genişlənən milli azadlıq mübarizəsi tarixinin qısa xülasəsi arxiv sənədləri, rəsmi dəlillər və xəritələr əsasında araşdırılır.

Tarixən ermənilərin azərbaycanlılara qarşı apardığı etnik təmizləmə və mənəvi soyqırımı araşdıran alim "Erməni kilsəsi və Türk-Azərbaycan torpaqlarında dolaşmaqda olan "böyük Ermənistan kabusu" əsərini qələmə alır və həqiqətləri tarixi faktlarla araşdıraraq ortaya qoyur. Bununla yanaşı, İsrafil Məmmədovun böyük zəhməti, fədakarlığı, yuxusuz gecələrinin məhsulu olan iki cildlik "Об историй исконной земли и горькой судьбе азербайджанцев, изгнанных из нынешней Республики Армения", "Rus-Türk müharibələrində ermənilərin iştirakı", iki cildlik "İrəvan dəftəri... teatr tariximizdən səhifələr" kitablarının müəllifidir.

İsrafil müəllim həmçinin "Deportasiya", "İrəvan və irəvanlılar", "Deportasiya", II, III, IV, V, VI, VII filmoqrafiyalarının da müəllifidir.

Bu nəcib insanın zəhmətini qiymətləndirən möhtərəm Prezidentimiz cənab İlham Əliyevin 25 may 2012-ci il tarixli Sərəncamı ilə İsrafil Məmmədova elm sahəsindəki uğurlarına görə Azərbaycan Respublikasının Dövlət mükafatı verilmişdir.

İsrafil məllim 88 yaşında olmasına baxmayaraq, hələ də qələmini yerə qoymamışdır. Yeni-yeni tədqiqatlar üzərində çalışmaqda davam edir.

Nəcib insan, böyük tədqiqatçı alim, el ağsaqqalımız İsrafil müəllimə cansağlığı və yeni-yeni uğurlar diləyirik.

**Məhəmməd TANRIVERDİYEV.**